Azərbaycan.- 2021.- 1 aprel. S. 7.

# Jurnalistlər işğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsi prosesi ilə tanış olublar



Azərbaycan tarixinə əbədi yazılan 44 günlük Vətən müharibəsində müzəffər ordumuz torpaqlarımızı yağı düşməndən azad etdi.

Bu gün isə ermənilərin həmin ərazilərdə basdırdığı minalar Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən təmizlənir.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilən Füzuli rayonunun ərazisində minaların təmizləndiyi sahələrə mediatur təşkil olunub.

ANAMA-nın təmizləmə qrupunun əməliyyat meneceri Mədət Məmmədov açıqlamasında bildirib ki, təmizləmə işləri əsasən üç yolla aparılır. Ərazidə mina təmizləmə üzrə mütəxəssislər xüsusi detektorlar vasitəsilə minaların aşkarlanması işlərini yerinə yetirir. Həmçinin zolaqların açılması üçün uzaqdan idarə olunan mina təmizləmə texnikaları çalışır. Bundan başqa, təmizləmə işlərində xüsusi təlim keçmiş itlərdən də istifadə olunur.

Görülən işlər çərçivəsində, ümumilikdə, 3 milyon 600 min kvadratmetrdən çox ərazidə 4224 piyada əleyhinə mina, 1181 tank əleyhinə mina aşkar edilib. Eyni zamanda 2064 ədəd tank əleyhinə minanın partladıcısı və 300 ədəd bombacıq zərərsizləşdirilib.

Mədət Məmmədov onu da qeyd edib ki, ermənilər tərəfindən minalanmış ərazilərin xəritəsi təqdim edilmədiyi üçün təmizləmə işlərində çətinlik yaranır. Belə ki, təkcə Şuşa yolunun keçəcəyi hissədə 1,5 kilometr məsafədə 9 mina xətti aşkar edilib. Hazırda həmin istiqamətdə də təmizləmə işləri görülür. Yolun gediş-gəliş hissəsi üçün 150 metr enində 34 kilometr uzunluğunda ərazi təmizlənir. Adıçəkilən ərazidən bu günə kimi 207 ədəd tank əleyhinə mina, 168 ədəd piyada əleyhinə mina, 5 ədəd isə partlamamış hərbi sursat aşkar edilib. Piyada əleyhinə minalar erməni istehsalı olan minalardırsa, tank əleyhinə olan minaların əksəriyyəti Rusiya istehsalıdır.

Mediatur çərçivəsində həmçinin ermənilərin mifik obraza çevirdiyi "Ohanyan xətti"ndə də düşmən tərəfindən yaradılan maneələr və mina əraziləri ilə tanışlıq olub. ANAMA-nın əməliyyatlar üzrə mütəxəssisi Azər Hüseynov bildirib ki, əraziyə xeyli mina basdırılıb. Demək olar ki, 1 kvadratmetr ərazidə 4-5 ədəd minaya rast gəlmək mümkündür. Düşmənin belə sədd yaratmasına baxmayaraq, şanlı Azərbaycan Ordusu əks-hücumla həmin ərazidə qısa müddətdə zolaq açaraq düşmən səddini yara bilib. Müzəffər ordumuz qarşısında tab gətirə bilməyən ermənilər işğalda saxladığı Azərbaycan torpaqlarından çıxmağa məcbur olub.

Jurnalistlər mina təmizləmə mütəxəssisləri tərəfindən aşkar edilən tank və piyada əleyhinə minaların, həmçinin partlamamış silah-sursatların zərərsizləşdirilməsi prosesini də izləyiblər.